2 İYUN Mülki Aviasiya İşçilərinin Peşə Bayramıdır

Yeni inkişaf mərhələsində

Ölkəmizdə milli mülki aviasiyanın təməli hələ 70-ci illərdə ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş, bu istiqamətdə bir sıra mühüm layihələr həyata keçirilmişdir. Ümummilli lider ikinci dəfə hakimiyyətə gəlişindən sonra da bu missiyanı uğurla davam etdirmişdir. Belə ki, müstəqilliyimizin bərpasından sonra Azərbaycan 1992-ci ildə "Beynəlxalq mülki aviasiya haqqında" Çikaqo Konvensiyasına qoşulmuş və İCAO-ya üzv qəbul olunmuşdur. 1996-cı ildə isə İCAO və Avropa İnkişaf Bankının himayəsi altında "Azəraeronaviqasiya" (AZANS) aeronaviqasiya xidməti müəssisəsi yaradılmış və "Azərbaycan Hava Yolları" Dövlət Konserninin struktur bölmələri arasında ilk olaraq hüquqi müstəqillik statusu əldə etmişdir. Bir sözlə, 1996-cı ildən ölkəmizin milli aviasiya kompleksi köklü, əsaslı şəkildə dəyişdirilmiş, qlobal layihələr, proqramlar reallaşdırılmış, dünya standartları səviyyəsinə çatdırmaq istiqamətində çox böyük layihələr gerçəkləşdirilmişdir.

1997-ci ildə hələ sovet dövründən tikintisi yarımçıq qalan və baxımsız vəziyyətdə olan aerovağzal kompleksinin yeni layihəsinin təqdimatı keçirilmiş, kompleks müasir tələblər və yeni, daha yüksək standartlar nəzərə alınmaqla inşa edilmişdir. Həmin ildə hava hərəkətinin idarə edilməsinin yeni mərkəzinin yaradılması dünya aviasiya icmasına fəal şəkildə inteqrasiya olunan Azərbaycan mülki aviasiyasının əsas nailiyyətlərindən biri olmuşdu. Ölkənin aeronaviqasiya sistemi Beynəlxalq Mülki Aviasiya Təşkilatının CNS/ATM konsepsiyasına uyğun, texniki və əməliyyat səviyyələrinin tələbləri nəzərə alınmaqla qurulmuş və beləliklə, 1999-cu ildə yeni aeronaviqasiya kompleksinə malik, regionun ən böyük və texniki cəhətdən təchiz olunmuş hava limanı - Heydər Əliyev Beynəlxalq Aeroportu istifadəyə verilmişdi. Hava hərəkətinin avtomatlaşdırılmış idarəetmə sistemi işə salınmış, İCAO tərəfindən tövsiyə olunan müasir texnologiyalar, prosedurlar və təcrübələr tətbiq edilmişdi. Müasir tələblər səviyyəsində qurulan Bakı aeroportunun avadanlıqları təyyarələrə istənilən hava şəraitində havaya qalxmaq və enmək imkanı verirdi ki, bu da Azərbaycanın paytaxtını dünyanın əksər aviaşirkətləri üçün cəlbedici etmişdi.

1997-ci ildə peyk texnologiyalarına əsaslanan HHİ-nin vahid və inteqrasiya olunan sistemi yaradılmış, bu sistem Cənubi Qafqaz, Orta Asiya regionu, Çin, Monqolustan, İpək yolu üzərində yerləşən ölkələrin bütün nəqliyyat infrastrukturunun inkişafında mühüm əhəmiyyətə malik olmuşdu. Eyni vaxtda Avropa İttifaqının təşəbbüsü ilə "Azəraeronaviqasiya" olan "South Ring" layihəsinin birinci mərhələsi başlamış, 1999-cu ildə "Cənub Qapısı" ("South Gate") layihəsinə start verilmişdi.

2000-ci ildə "Azərbaycan Hava Yolları" ilk Boeing 757-200 model təyyarələr almış, həmin illərdə 6 ədəd yeni "Airbus A-320", 4 ədəd "Airbus A-319" gətirilmiş, yerli xətlərə Fransa istehsalı olan 4 "ATR-72" təyyarəsi buraxılmışdır. Bir müddət sonra isə yaxın magistrallı Fransa istehsalı olan təyyarələr böyük yükgötürmə qabiliyyətinə malik və dağların üzərində uçuşlara daha yaxşı uyğunlaşan Braziliya istehsalı - reaktiv "Embraer" təyyarələri ilə əvəzlənmişdir.

"Azəraeronaviqasiya" 2003-cü ildə Aeronaviqasiya Xidmətinin İnkişafı üzrə Regional Assosiasiyasının (RADA) yaradıcılarından biri olan Mülki Aviasiya Aeronaviqasiya Xidmətlərinin Təchizatçıları Təşkilatının (CANSO) üzvlüyünə qəbul edilmişdir. Ölkə başçısı İlham Əliyevin 29 dekabr 2006-cı il tarixli Sərəncamı ilə Azərbaycan Respublikasının Dövlət Mülki Aviasiya Administrasiyası yaradılmış və 2018-ci ildə Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi yanında Dövlət Mülki Aviasiya Agentliyi kimi nazirliyin strukturuna daxil edilmişdir.

Həmin illərdə "Özəlləşdirmə və iqtisadiyyatın diversifikasiyası proqramı" çərçivəsində ölkənin bir sıra mülki aviasiya qurumlarının özəlləşdirilməsinə start verilmişdi. Belə ki, dövlət tərəfindən yeni təyyarələrin alınması, hava limanlarının yenidən qurulması işlərinə başlanmış, bu işlərin həyata keçirilməsində özəl sektorun iştirakı təmin edilmiş və yük daşımaları, təyyarələrin texniki xidməti, sərnişinlərə xidmət, mehmanxana təsərrüfatı özəl sektor tərəfindən həyata keçirilmişdi.

Müasir dünyanın yeni reallıqları Azərbaycan paytaxtının hava limanının əsaslı yenilənməsini və dəyişilməsi zərurəti yaradırdı. Bu baxımdan, Azərbaycan Prezidenti İlham Əliyevin iştirakı ilə 2011-ci il martın 17-də yeni aerovağzal kompleksinin təməli qoyulmuşdur. 2014-cü ildə aerovağzal kompleksinin I terminalının açılışı isə önəmli hadisə oldu.

MDB məkanında ilk dəfə olaraq "Dreamliner" təyyarələrinə sahib olan "Azərbaycan Hava Yolları" QSC-nin hava gəmiləri parkına "Airbus A340", uzaq magistrallı "Boeing-787 Dreamliner" təyyarələri, həmçinin geniş füzelyajlı uzaq magistrallı laynerlərin məşhur modeli olan "Boeing-767" təyyarələri daxildir. Azərbaycanın ilk loukost aviaşirkəti "Buta Airways"in istiqamətləri üzrə uçuşlar Braziliya istehsalı olan "Embraer" təyyarələri, orta məsafəli uçuşlar isə "Airbus-A319 və "Airbus-A320" təyyarələri ilə yerinə yetirilir.

Azərbaycanın milli aviadaşıyıcısı müstəqil beynəlxalq auditorlar tərəfindən göstərilən xidmətlərin keyfiyyəti və işçi heyətinin iş standartlarını əhatə edən 800-dən çox meyar üzrə qiymətləndirilmiş, Böyük Britaniyanın nüfuzlu konsaltinq şirkəti "Skytrax" tərəfindən "4 ulduz" reytinqinə layiq görülmüşdür. Bundan əlavə, milli aviadaşıyıcımızın "Dünyanın ən böyük tərəqqi əldə etmiş aviaşirkəti" adlı qlobal kateqoriyada "Skytrax" agentliyi tərəfindən təsis olunan "World Airline Awards" mükafatına namizədliyi irəli sürülmüşdür. Peşəkar mütəxəssislərə malik olan "Azərbaycan Hava Yolları" QSC sərnişinlərin təhlükəsizliyinin yüksək səviyyədə təmin edilməsi üçün lazım olan hər şeyə - baqajın yoxlanılması üçün rentgen qurğularından tutmuş, sərnişinləri mənfi emosiyalar yaratmadan lazımi qaydada yoxlamağa imkan verən skanerlərə kimi bütün texniki vasitələrə sahibdir.

Bu gün Azərbaycan mülki aviasiyasının inkişaf tarixində yeni səhifə açılmışdır. Milli aviasiyamızın möhtəşəm simvolu olan Heydər Əliyev Beynəlxalq Hava Limanının yeni beynəlxalq terminalı müstəsna mühəndis layihəsi olmaqla öz funksionallığı, forması və dizayner həlləri ilə hər kəsi heyrətləndirir. Heydər Əliyev Beynəlxalq Aeroportunun ərazisində təkcə sərnişin və yük terminalları deyil, həm də texniki anqarlar da mövcuddur. Hava limanı bölgədə sərnişin və yük daşınmasına, uçuş və enişlərin sayına, aerovağzal kompleksinin və yük terminalının tutumuna görə ən böyük hava limanıdır. Bu baxımdan, bölgədə və MDB ölkələri arasında ən yaxşı hava limanı hesab olunan Heydər Əliyev Beynəlxalq Hava Limanı 2018-ci ildə Britaniyanın məşhur Skytrax kampaniyası tərəfindən "5 ulduz" statusuna layiq görülmüşdür. "Azərbaycan Hava Yolları" QSC bu gün dünyanın demək olar ki, hər tərəfinə uçuşlarının sayını artırmaqla yanaşı, respublika ərazisində sərnişinlərə yüksək və keyfiyyətli xidmət göstərən hava limanlarının sayını da artırır.

2006-cı ilin mart ayından etibarən Bakı aeroportunda təyyarələrə texniki xidmətdən "Silk Way Technics" şirkəti məsuldur. 2012-ci ildə bütün müasir tələblərə cavab verən 16.000 kvadratmetrlik anqarın tikintisi başa çatdıqdan sonra "Silk Way Technics" artıq 10 dar və ya 5 enli korpuslu təyyarəyə eyni zamanda xidmət etmək gücü ilə fəaliyyət göstərir. Həmçinin, təyyarələrə texniki xidmət göstərmək üçün "Silk Way Technics" əsasında mükəmməl baza yaradılmışdır.

"Azərbaycan Hava Yolları" aviaşirkətinin törəmə müəssisəsi olan "Buta Airways" loukosteri müntəzəm uçuşlara 2017-ci ildə başlayıb. Aşağıbüdcəli aviaşirkətlərdə olduğu kimi, "Buta Airways" də öz sərnişinlərinə aşağı məbləğdə - 29 avrodan başlayan uçuş imkanları yaradır.

Regional aviasiyanın inkişafı "Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın əsasını təşkil etmişdir. Belə ki, 1974-cü ildə Naxçıvanda hava limanının tikintisinə başlanılmış, ilk reyslər isə 1976-cı ildə qəbul edilmişdir. Yalnız Bakıya uçuşlar həyata keçirən Naxçıvan hava limanının modernləşdirilməsi, bərpası və yenidənqurma işləri 2015-ci ildə başa çatdırılmış və Naxçıvanda yeni Şərq terminalı tikilmişdir. 2006-cı ildə yenidən qurulan Gəncə Beynəlxalq Hava Limanının modernləşdirilməsinə 40 milyon ABŞ dolları ayrılmış, bu vəsaitlə yeni aerovağzal kompleksi, yük terminalı tikilmiş, ən ağır hava gəmilərini qəbul etməyə qadir 3300 metr uzunluğunda uçuş-enmə zolağı salınmış, aeroportu Qazax-Bakı avtomagistralı ilə birləşdirən 3 kilometrlik avtomobil yolu çəkilmiş, habelə sərnişin və yük təyyarələrinə xidmət olunması üçün 10 dayanacaq tikilmişdir.

Azərbaycanın şimal-qərbində yerləşən Qəbələ şəhərində beynəlxalq hava limanının tikintisinə 2011-ci ilin yanvarında başlanılmış, həmin il noyabrında isə Prezident İlham Əliyev açılış mərasimində iştirak etmişdir. Bu gün Qəbələ hava limanı İstanbuldan və Moskvadan uçuşları qəbul edir, Əbu-Dabi və digər şəhərlərə reyslər açılır. Azərbaycanın cənub-şərqində Lənkəran beynəlxalq hava limanı, Böyük Qafqaz dağlarının cənub ətəyində yerləşən Zaqatala şəhərində isə Zaqatala Beynəlxalq Hava Limanı fəaliyyət göstərir. Lənkəran aeroportunun yenidən qurulmasına 2005-ci ildə başlanılmış, açılış mərasimi isə 2008-ci ilin oktyabr ayında baş tutmuşdur. 2009-cu ildə isə Zaqatala hava limanı əsaslı şəkildə yenidən qurulmuşdur. Aeroportun terminalının və uçuş-enmə zolağının sonuncu dəfə yenidənqurulması 2008-ci ildə başa çatdırılmışdır. Geniş füzelajlı hava gəmilərini qəbul edən Zaqatala Beynəlxalq Hava Limanının yeni uçuş-enmə zolağı beynəlxalq tələblərə cavab verir. Aeroportun ərazisində müasir naviqasiya sistemləri, meteoroloji və işıq siqnalı avadanlıqları quraşdırılmış, aerovağzal kompleksi əsaslı təmir olunmuşdur. Lənkəran və Zaqatala hava limanları beynəlxalq statusa malikdir.

İşğal edilmiş ərazilərimizdə hava məkanı təxminən 30 il müddətində beynəlxalq uçuşlar üçün bağlı olmuş, həmin ərazilərdəki mülki aviasiya infrastrukturu ciddi şəkildə zərər çəkmiş və tamamilə dağıdılmışdı. Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında şanlı ordumuzun rəşadəti sayəsində işğaldan azad olunmuş torpaqlarımızda bu gün böyük qayıdışımızı təmin edən möhtəşəm quruculuq işlərinin həyata keçirilməsi üçün yeni layihələrin əsası qoyulur. O cümlədən beynəlxalq uçuşların həyata keçirilməsi məqsədilə Ermənistanın işğalından azad olunmuş ərazilərdə aeronaviqasiya təminatının bərpası üzrə mühüm, ciddi işlər aparılır.

Torpaqlarımız işğaldan azad edildikdən sonra ölkə başçımız İlham Əliyev Füzuli şəhərində sayca 7-ci beynəlxalq hava limanının tikintisi barədə Sərəncam imzalamış, gələcək hava limanının təməli qoyulmuşdur. Hava limanının layihəsinə aerovağzal binası, 3000x45 metr ölçüdə uçuş-enmə zolağı, peron, yönəldici yol, uçuş-enmə zolağının işıq-siqnal sistemləri, transformator yarımstansiyalarının tikintisi və köməkçi binalar daxildir.

Füzulidə hava limanının tikilməsi ölkənin bu bölgəsi ilə rahat və operativ əlaqənin saxlanılması, işğaldan azad edilən ərazilərin inkişafı, o cümlədən turizm imkanlarının artması üçün də əlverişli şərait yaradacaq. Eyni zamanda, vacib layihələrdən hesab olunan Füzulidə hava limanının inşa edilməsi turistlərin daha sərfəli, qısa yolla birbaşa işğaldan azad edilən ərazilərimizə getməsinə, Şuşa və digər şəhərlərimizi ziyarət edə bilmələrinə imkan verəcək, Azərbaycanın logistik imkanlarını genişləndirəcək ki, bu da bölgənin iqtisadi imkanlarının genişlənməsi baxımından vacib amildir.

Bakı, Naxçıvan və Türkiyəni birləşdirən yolun üzərində yerləşərək "Zəfər yolu"na birləşdirilən Füzuli hava limanı turist səfərlərini asanlaşdırmaqla yanaşı, eyni zamanda daxili və xarici turistlər üçün də cəlbedici olacaq. İşğaldan azad olunmuş ərazilərimizdə bütün növ, o cümlədən ağır yük təyyarələrini qəbul edə biləcək Füzuli, Zəngilan və Laçın hava limanlarının tikilməsi iqtisadi baxımdan səmərəli olmaqla bərabər, bu rayonların strateji əhəmiyyətini də artırır.

Həm sərnişin, həm də beynəlxalq yükdaşımaları baxımından Zəngilan rayonunda da hava limanına böyük ehtiyac var idi. Zəngəzur dəhlizinə inteqrasiya olunacaq bu hava limanı həm də Şərq-Qərb nəqliyyat dəhlizinə birləşəcək. Füzuli hava limanı ilə iqtisadi göstəriciləri demək olar ki, eyni olan Zəngilan hava limanının da uzunluğu 3 km, eni 60 metrdir. Uçuş-enmə zolağında bir neçə hava gəmisinin dayanması üçün sahə, sərnişinlərə xidmət göstərəcək terminal, hava gəmilərinin idarəedilməsi üçün qüllə, transformator yarımstansiyası, qazanxana, su anbarı və başqa köməkçi tikililərdən ibarət olacaq. Peronda torpaq işləri artıq başa çatmışdır. Mobilizasiya və tikinti işlərinin elektrik enerjisi ilə təmin olunması generatorlar vasitəsilə həyata keçirilir. Aeroportun yaxınlığında asfalt-beton zavodu tikilmiş, 10 kilometrlik məsafədə ikidövrəli olmaqla 35 kilovoltluq elektrikötürmə xətti çəkilmiş, həmçinin su təchizatı üçün 230 metr dərinliyində artezian quyusu qazılmışdır. Binanın beton və metal konstruksiyalarının montaj işləri başa çatıb. Aeroport terminalının tikintisinin avqustun sonlarında, Hava Hərəkəti Qülləsinin tikintisinin isə iyul ayında tamamlanması planlaşdırılır. 500 kvadratmetr sahəsi olan aeroport beynəlxalq standartlara uyğun olaraq layihələdirilmişdir. Terminalda VİP zal, kafe, tibb məntəqəsi və ofis otaqları mövcuddur. Boyler otaqlarının, su üçün rezervuarların və digər obyektlərin tikintisi üzrə işlər davam edir.

Həm Füzuli, həm də Zəngilan hava limanları bir saatda 200 sərnişinə xidmət edə biləcək. Zəngilan hava limanının təməlqoyma mərasimində iştirak edən ölkə başçısı bu limanın dövlətimizin gücünün, qüdrətinin və əbədi, əzəli torpaqlarımıza böyük qayıdışın bariz nümunəsi olduğunu qeyd edərək demişdir: "Azad edilmiş torpaqlarda ikinci hava limanının tikintisinə start verilibdir... Zəngilan rayonunun coğrafi yerləşməsi və burada olan imkanlar təbii ki, Zəngilanı beynəlxalq nəqliyyat-logistika mərkəzinə çevirmək üçün imkanlar yaradır. Təsadüfi deyil ki, hava limanı məhz Zəngilanda inşa ediləcək. Çünki coğrafi vəziyyətə baxdıqda hər kəs görə bilər ki, Füzuli, Zəngilan və ondan sonra Laçın rayonunda inşa ediləcək üçüncü beynəlxalq hava limanı bütün Qarabağ və Şərqi Zəngəzur zonasını Zəngilan daxil olmaq şərtilə əhatə edəcək. Buradan dəmir yolu, avtomobil yolu keçəcək, Naxçıvana yol açılacaq. Əlbəttə ki, Zəngilanın gələcək uğurlu sosial-iqtisadi inkişafı üçün bu hava limanının böyük rolu olacaqdır".

Bu ilin aprel ayından AZAL Zəngilan hava limanında uçuşların idarə edilməsinin yeni sisteminin tətbiqinə başlayıb ki, bu da gələcəkdə uçuşların İCAO və IATA standartlarına uyğun olaraq həyata keçirilməsini təmin edəcək.

İşğal olunmuş ərazilərimizdə üçüncü hava limanı Laçın rayonunda tikiləcək.

Bu gün "Azərbaycan Hava Yolları" durmadan uçuşlarının sayını artırır, coğrafiyasını genişləndirir. Mülki Aviasiyamız sürətlə inkişaf edir. "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyəti Aviasiya Təhlükəsizlik İdarəsinin struktur bölmələri təhlükəsizliyin təmin olunmasına xidmət edir. İşğaldan azad olunmuş ərazilərdə aeronaviqasiya təminatının bərpa edilməsi ölkəmizin mülki aviasiyasının təkcə regional səviyyədə deyil, həm də qlobal miqyasda da inkişafını təmin edəcək. Şanlı zəfərimizin, əbədi qayıdışımızın, ölkəmizdə inkişafın, tərəqqinin bir səhifəsi olan Zəngilan, Füzuli və Laçın hava limanları bölgədə faydalı əməkdaşlığın əsasını qoyaraq mülki aviasiyamızın inkişafına öz töhfəsini verəcəkdir.

Müstəqilliyimiz möhkəmləndikcə, ölkəmizin iqtisadi qüdrəti artdıqca bütün sahələrdə olduğu kimi, "Azərbaycan Hava Yolları" da beynəlxalq standartlara uyğun olaraq yenidən qurulur, mülki aviasiyamız ildən-ilə yeni inkişaf mərhələsinə qədəm qoyur. Bütün görülən işlər isə ən ali məqsədə: uçuşların təhlükəsiz həyata keçirilməsinə xidmət edir.

Mehparə ƏLİYEVA,
"Respublika".